# Uşaqlar üçün "Qədir Xum" bayramı hekayəsi kitabı

İran İslam Respublikasının Naxçıvandakı
Baş Konsulluğunun Mədəniyyət Attaşeliyi



**Kitabın adı: Uşaqlar üçün "Qədir Xum" bayramı hekayəsi kitabı**

**Tərtibatçı: Əbülfəzl Rəbii**

**Çap: 2021**

**E_BOOK**

## Allahın adı ilə

## "Qədir Xum" bayramı hekayəsi



"Qədir Xum" bayramı peyğəmbərin (s) İmam Əlini (ə) canişin seçdiyi gündür. Bu gündə kamillik ayəsi nazil oldu və Allahın dini

tamamlandı.Bəzi ata və analarda sual yaranır ki, “Qədir Xum” bayramını uşaqlarımıza necə izah edək? Anlaya bilmələri üçün bu hadisəni onlara hansı dildə izah etməliyik?

Bu kitabda “Qədir Xum” bayramı barədə olan hekayəni mümkün qədər sadə dillə izah etdik ki, uşaqlar oxusun və bu bayramın ləzzəti onlar üçün daha da şirinləşsin.

Əziz balalar! Həzrət peyğəmbərin (s) dövrü bizdəkindən çox fərqli idi. Xəbərlərin radio və televiziya vasitəsi ilə xalqa çatması o zaman deyildi. O dövrdə elektrik, radio və televiziya hələ icad olunmamışdı. Allahın son peyğəmbəri (s) olan Məhəmməd peyğəmbər (s) hər kəsə çox vacib xəbərləri çatdırmalı idi.

Əziz balalar! O dövrdə bütün İraq və bir neçə başqa ölkə də Səudiyyə Ərəbistanının bir

hissəsi sayılırdı. Necə ola bilərdi ki, peyğəmbər (s) bu böyük xəbərini hamıya çatdıra bilsin? Peyğəmbərin (s) yaxşı bir fikri var idi. Sevgili Peyğəmbərimiz (s) Həcc vaxtı gələnə qədər gözlədi. Həmin vaxt hər yerdən müsəlmanlar Peyğəmbərlə (s) birlikdə Allahın evini ziyarət etmək üçün Məkkəyə gəldilər. O dövrdə Peyğəmbər (s) üçün hər kəsə bu vacib xəbəri vermək yaxşı bir fürsət idi ki, zəvvarlar və Həcc ziyarətinə gələn insanlar, şəhərlərinə qayıdarkən Peyğəmbər (s) xəbərlərini həmvətənlərinə desinlər və beləliklə bütün insanlar məlumatlansın. Həzrət Məhəmməd (s) Allahın evinə son səfərində “Qədir Xum” adlanan bir yerdə, yanındakı insanlardan dəvələrdən və atlardan düşərək “Qədir Xum” adlı xüsusi bir yerə toplaşmalarını istədi. (Ərəb dilində "Qədir" çuxur deməkdir. "Xum" isə yer adıdır. O dövrdə burada axan bulaq və köhnə ağaclar var idi.)



Hamı bir-birinə pıçıldayırdı ki, Məhəmməd Rəsulullahın (s) bu isti məkanda və havada toplanmamızı əmr etməyi üçün vacib xəbərləri və sözləri olmalıdır! Peyğəmbərin (s) əmri ilə bir neçə dəvəni yüklədilər və peyğəmbər (s) onun üstünə qalxdı. İmam Əlini (ə) özüylə birlikdə yuxarı apardı. Orada toplanan yüz min insan peyğəmbərə (s) baxaraq öz-özlərinə deyirdilər ki, peyğəmbər (s) bununla nə demək istəyir?

Allahın Peyğəmbəri (s) buyurdu: Ey insanlar! Məndən sonra sizin üçün qalacaq iki çox dəyərli şeyi sizə əmanət edirəm. Bu iki dəyərli şey biri Quran, digəri mənim Əhli beytimdir (ə). Bu ikisi heç vaxt bir-birindən ayrılmaz və həmişə birlikdədirlər. Odur ki, bu iki əmanətə diqqət yetirin və onlara əməl edin.

Həzrət Məhəmməd (s) həzrət Əlinin (ə) əlini yuxarı qaldıraraq orada olanlardan soruşdu: "Ey insanlar, məni qəbul edirsiniz?" Hamı dedi: "Bəli, ey Allahın Rəsulu, sən Məhəmməd (s) Əminsən." Sən bizim peyğəmbərimsən. ”

Sonra Həzrət Məhəmməd (s) həzrət İmam Əlinin (ə) əlindən tutub dedi: "Mən kimin ağasıyamsa, Əli də onun ağasıdır.”

Sonra dedi: “ Ey mənim Allahım! Mən möminlərin rəhbəriyəm. Onlara özlərindən daha

çox layiqəm. "Ey insanlar! mən kimin mövlası və rəhbəriyəmsə, Əli (ə) də onun mövlası və rəhbəridir." Peyğəmbər (s) bu cümləni üç dəfə təkrarladı və davam etdi: “Ya Rəbb, Əlinin (ə) dostlarını sev və düşmənlərini alçalt. İlahi! Əlini (ə) haqqın oxu qərar ver buyurdu və ardınca dedi:" Bu xəbəri eşidənlərin eşitməyənlərə çatdırması lazımdır ".



Peyğəmbərin (s) sözlərini eşidəndən sonra insanlar onun canişini qəbul etdilər və İmam Əlini (ə) təbrik etdilər.

**“Qədir Xum” bayramı mesajını uşaqlara necə çatdırmaq olar?**

Bəs “Qədir Xum” hadisəsinin mesajını nəsildən-nəslə necə ötürmək lazımdır sualı ortaya çıxır? Sadə, lakin təsirli şeylər etməklə bu hadisəni daha çox uşaqlara çatdırmaq olar.



## Sadə bir əl işi

Bayram üçün təbrik kartları əl işi hazırlanması uşaqlar üçün yaradıcı bir yoldur. Bu, uşağa “Qədir” hadisəsini anlamaqla yanaşı sənətkarlıq fəaliyyəti və əl işlərinin hazırlanmasını da öyrənməyə kömək edir. Onu öz əl işini yoldaşlarına və məktəbdəki müəllimlərinə hədiyyə etməyə təşviq edə bilərsiniz.

## Bədii əsərlər

“Qədir Xum” bayramı günü üçün uşaqlarınızın iştirakı ilə xiyabanınızı və ya həyətinizi və eyvanınızı işıqlandıra bilərsiniz. Unutmayın, lazımi avadanlıqları almaq üçün uşaqların rəyini soruşmalısınız ki, daha çox iştirak etsinlər. Bunları edərkən, “Qədir Xum” barədə uşağa

başa düşdüyü qədər izah edə bilərsiniz. Bu gün uşaqlar üçün xatirələr yaratmaq, bayramı izah etmək onlar ən yaxşı fürsət ola bilər. Bədii fəaliyyətlər, rəsm şəkilləri də daxil olmaqla əl işləri hazırlamaq, Bir tapmaca oyununu tamamlamaq, “Qədir Xum” bayramı ilə bağlı krossvord cızmaq uşağın bu hadisəni başa düşməsini daha da asanlaşdırır.



## Hədiyyə vermək

Yaxşı olar ki, ailənin böyükləri uşaqlara xatirə hədiyyələri versinlər. Ümumiyyətlə uşaqlar aldıqları hədiyyələri unutmurlar. Hədiyyəni bəzəmək üçün rəngli kağızlardan istifadə edin. Qədir Xum günü üçün möhür düzəldin və hədiyyəyə möhürləyin. Adətən böyüklər bu gün bayram pulu verirlər. Amma bu gündə uşaqlar üçün qalıcı hədiyyələr hazırlamaq daha yaxşıdır.